# 30 YAŞLI ELM OCAĞI

Müstəqil Azərbaycanda elm və təhsilin inkişafı ilk gündən dövlətin yürütdüyü daxili siyasətin əsas prioritet istiqamətlərindən biri olmuşdur. Bu gün dövlət müstəqilliyimizin 30-cü ildönümü qeyd olunacaq bir ildə ölkədə çoxlu sayda ali təhsil ocaqları fəaliyyət göstərir. Hər biri ayrı-ayrı parametrlərinə və özəlliklərinə görə fərqlənən bu universitetlər arasında yaşı Azərbaycanımızın dövlət müstəqilliyi ilə eyni olan Azərbaycan Universiteti (AU) hər zaman xüsusi yeri ilə seçilib. Azərbaycanın bir çox elm xadimləri, ziyalı və pedaqoqları bu təhsil məbədində uzun illər boyu yetişən gənc nəslə elm-təhsil verməklə bərabər, həmçinin, elmin inkişafına da öz dərin məzmunlu, sanballı elmi-tədqiqat işləri ilə öz töhfələrini vermişlər. Bu baxımdan Azərbaycan Universiteti ötən illər ərzində Azərbaycanın özəl ali tədris müəssisələri arasında öz sözü və öz yeri olan, elmə və təhsilə böyük önəm verən, istər bakalavriat, istər magistratura, istərsə də doktorantura səviyyələrində nəzərəçarpacaq dərəcədə böyük uğurlara və nailiyyətlərə imza atmış ali tədris müəssisələrindən birinə çevrilmişdir. Bu universitetin "Vətən tarixi" bölümü üzrə doktorantı kimi, mən universitetdə hər addımda yüksək elmi səviyyəli ciddi müzakirələr, yanaşmalar görmüşəm. Elmi-tədqiqat işlərinin sistemli, konseptual və dərin məzmunlu olmasına kömək edən çoxlu sayda əməkdaşlar daim doktorantlarla qarşılıqlı əməkdaşlıq şəraitində onlara əllərindən gələn köməyi etmiş, nəticədə Azərbaycan Universitetinin doktorantura şöbəsi böyük elmi potensialı olan insanların uğurlu fəaliyyət məkanına çevrilmişdir.

30 yaşını qeyd edən Azərbaycan Universiteti barədə söylənilən sözlər bəzən onun fəaliyyətinin geniş spektrini əhatə etməyə imkan vermir. Əminəm ki, özülü elmin və təhsilin yüksəlişi prinsipi üzərində qurulmuş universitet gələcək illərdə daha böyük uğurlara imza atacaq və nəinki Azərbaycanda, bütövlükdə Qafqazda və daha geniş miqyasda ciddi elmi dairələrin reytinqlərində özünə yüksək yer tutacaqdır. Universitetin doktotantı kimi, mənə doğma olan bu elm ocağını və onun rəhbərliyini başda hörmətli rektor Səadət xanım Əliyeva olmaqla Azərbaycan Universitetinin 30 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, universitetin bütün kollektivinə yeni-yeni elmi nailiyyətlər və tərəqqi arzulayıram.

Hörmətlə,
Azərbaycan Universitetinin doktorantı
Ceyhun Bayramlı.

Bakı şəh.
Nərimanov R-u. 37 saylı məktəbin direktoru